# Ermənistan yenə Azərbaycana şər atır

## İran-İsrail qarşıdurmasında ən praqmatik mövqeni ölkəmiz sərgiləyir



Müstəqil Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək Konstitusiyasını qəbul edərkən ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamağı və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməyi ali niyyət kimi müəyyən edib. Ölkəmiz başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur və Konstitusiyanın 9-cu maddəsində rəsmən bəyan edilir ki, Azərbaycan Respublikası başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi kimi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir.

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycanla İsrail dövləti arasında çox yüksək səviyyədə siyasi, iqtisadi və müdafiə sənayesi sahəsində münasibətlər var və əlaqələrimiz genişlənməkdədir. O cümlədən Azərbaycan qonşu İran dövləti ilə də xalqlarımızın mənafeyinə cavab verən qarşılıqlı faydalı əməkdaşlıq, mehriban qonşuluq prinsipləri əsasında ikitərəfli normal siyasi, iqtisadi, mədəni münasibətlər yaratmağa müvəffəq olub. Yaxın günlərdə cənab İlham Əliyev ilə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian arasında telefon danışığında birgə səylərlə ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə dinamik surətdə inkişaf edəcəyinə ümidvarlıq bildirilib: "Aydındır ki, hər bir beynəlxalq subyekt kimi, Azərbaycan üçün də hər şeydən daha vacib olan milli maraqlardır. Bu mənada İsrail dövləti tərəfindən İran İslam Respublikasının ərazisinə qarşı həyata keçirilmiş hərbi əməliyyatlardan dərhal sonra Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda da məhz ilk növbədə milli maraqlar və beynəlxalq hüquq rəhbər tutuldu və Bakı proseslərin gedişindən ciddi şəkildə narahatlıq ifadə etdi. Nazirliyin rəsmi açıqlamasında da ifadə olunduğu kimi, ölkəmiz vəziyyətin gərginləşdirilməsini qəti şəkildə pisləyərək, tərəfləri mövcud fikir ayrılıqlarını yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, dialoq və diplomatik yollarla həll etməyə çağırdı", - deyə o deyib.

Deputat qeyd edib ki, iyunun 14-də Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov ilə İran xarici işlər naziri Seyid Abbas Əraqçi arasında telefon danışığı zamanı İsrailin İran ərazisinə qarşı başladığı əməliyyat nəticəsində yaranmış vəziyyət müzakirə olunarkən əvvəllər olduğu kimi, yenə də Azərbaycan ərazisinin hər hansı bir ölkə tərəfindən üçüncü ölkəyə, o cümlədən qonşu və dost İrana qarşı istifadə edilməsinin mümkün olmadığı rəsmən vurğulanıb. Bütün bunların fonunda Ermənistanda Azərbaycanın İsrailə dəstək verməsinə dair geniş kampaniya aparılması absurddur və bu, ölkənin hər fürsətdə Azərbaycana qarşı düşmənçilik mövqeyinin göstəricisidir. Eyni zamanda qardaş Türkiyədə bəzi media qurumları və ictimai fiqurların bu kampaniyanın fəal icraçılarına çevrilməsi reallığı da müşahidə olunmaqdadır ki, bu da ciddi təəssüf doğurur. Düzdür, qardaş Türkiyənin hökumət rəsmiləri bu kimi iddialara dair açıq mövqelərini ifadə edirlər, lakin ayrı-ayrı dairələrin böhtan təbliğatından hələ də əl çəkməməsi narahatlıq yaradır.

B.Məhərrəmov vurğulayıb ki, İran-İsrail qarşıdurmasında ən praqmatik, həll-yönümlü və praktik mövqeni məhz Azərbaycan nümayiş etdirir: Azərbaycanın mövqeyi kifayət qədər aydındır, heç vaxt regionda gərginlik yaranmasını istəmir. Prezident İlham Əliyevin Müzəffər Komandanlığında Azərbaycanın hərbi-siyasi qələbəsi ilə regionumuzun ən təhlükəli və uzunmüddətli münaqişəsinə, o cümlədən yeni münaqişə təhdidi kimi çıxış edə biləcək separatizmə son qoyulub. İndiki halda da biz İran-İsrail münaqişəsinin geniş bölgəyə yayılması təhlükəsini nəzərə alaraq, problemin həlli üçün diplomatik səylərin artırılmasının əhəmiyyətini bir daha qeyd edirik. İyunun 14-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefon söhbəti zamanı Prezident İlham Əliyev bu mövqeyi bir daha bəyan edərək İran və İsrail arasında vəziyyətin gərginləşməsi ilə bağlı narahatlıq ifadə edərək gərginliyin tezliklə aradan qaldırılmasının vacibliyini, məsələlərin danışıqlar yolu ilə həllinin önəmini vurğulayıb. Xüsusən nüvə obyektlərinin ətrafında mövcud vəziyyətin narahatlıq doğurduğu bir şəraitdə problemin yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, dialoq və diplomatik yollarla həll edilməsi bütün region üçün zəruridir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 18 iyun (№123).- S.11.